**T Ü R K O L O G İ Y A**

**№ 1** **2026**

**https://doi.org/10.59849/2313-5204.2026.1.9**

## I TÜRKOLOJİ QURULTAY – 100
## ПЕРВЫЙ ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД – 100
## 1ST TURKOLOGICAL CONGRESS - 100

*İSA HƏBİBBƏYLİ (Azərbaycan)**

# BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN QURUCULARI, DƏRSLƏRİ VƏ MÜASİRLİK

**Xülasə**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 oktyabr 2025-ci ildə imzaladığı «Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında» Sərəncamı ilə əlaqədar olaraq humanitar və ictimai elmlərin inkişafında yeni mərhələyə start verilmiş, türkologiya elmi ön mövqeyə çıxarılmışdır.

Birinci Türkoloji Qurultay dil, ədəbiyyat, tarix, fəlsəfə, folklor, etnoqrafiya, sənətşünaslıq, terminologiya kimi sahələri əhatə etmiş, türkologiya elminin mükəmməl bir sistemini və modelini yaratmış, türk xalqları arasında elmi-mədəni inteqrasiyanın əsaslarını formalaşdırmışdır.

Türk Dövlətləri Təşkilatı Parlament Assambleyasının, Beynəlxalq Türk Akademiyasının, Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması və uğurla fəaliyyətini davam etdirməsi Birinci Türkoloji Qurultayın ideallarının davam etdirilməsi və gerçəkləşdirilməsi baxımından mühüm hadisələrdir.

**Açar söz**: *Türk dünyası, Türkoloji Qurultay, türk xalqları, ortaq türk əlifbası.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 oktyabr 2025-ci ildə imzaladığı «Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında» Sərəncamı ilə əlaqədar olaraq ölkəmizdə humanitar və ictimai elmlərin inkişafında yeni tarixi dövr başlanmışdır. Yüz il bundan

* Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik. E-mail: isa.habibbeyli@science.az

əvvəl, 26 fevral 1926-cı il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasının tarixi salonunda türk dünyasının müxtəlif diyarlarından gəlmiş 131 nəfər böyük şəxsiyyətin iştirak etdiyi Birinci Türkoloji Qurultay öz işinə başlamışdır. Birinci Türkoloji Qurultayın ilk iclasları 26 fevral-06 mart tarixləri arasında Bakı şəhərində Milli Elmlər Akademiyasının Böyük Akt Zalında təşkil olunmuşdur. On gün ərzində Birinci Türkoloji Qurultayın 17 iclası keçirilmişdir. Qurultayda türkologiyanın ən müxtəlif məsələlərinə həsr edilmiş 80-dən çox məruzə və çıxış dinlənilib müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

Birinci Türkoloji Qurultay türk dünyasının bütün coğrafiyasını əhatə etmişdir. Qurultayda Azərbaycandan 22 nəfər, Türkiyə Cümhuriyyətindən 5 nəfər, Özbəkistandan 11 nəfər, Qazaxıstandan 4 nəfər, Türkmənistandan 5 nəfər, Qırğızıstandan 2 nəfər, Gürcüstandan 6 nəfər, Tatarıstandan 8 nəfər, Başqırdıstandan 6 nəfər, Krımdan 6 nəfər, Rusiya Federasiyasından 28 nəfər, Ukraynadan 1 nəfər, Dağıstandan 6 nəfər, Rostovdan 3 nəfər, Şimali Osetiyadan 3 nəfər, Yakutiyadan 2 nəfər, Ermənistandan 2 nəfər, Adıgeydən 2 nəfər, Ukrayna, Çeçenistan, Həştərxan, Oyrot diyarından, Acarıstandan, Qaraçay, Xakasiya, Kislovodsk, Çuvaş, Çeboksarı və Abxaziyadan hərəsindən 1 nəfər olmaqla cəmi 131 nəfər iştirak etmişdir.

Birinci Türkoloji Qurultay məşhur türkoloq, akademik Vasili Radlovun və «Tərcüman» qəzetinin baş redaktoru, yeni üsullu məktəb ideyasının banisi, «Dildə, fikirdə, işdə birlik” düsturunun müəllifi İsmayıl bəy Qaspralının şərəfinə həsr olunmuşdur.

Qurultayda həmin dövrün və hətta sonrakı dövrlərin də məşhur türkoloqları olan Vasili Bartold, Bəkir Çobanzadə, Aleksandr Samoyloviç, Fuad Köprülüzadə, Əlibəy Hüseynzadə, Malov, Yakovlev, Fyodor Menzel, macar Yulius Maseroş, Aqafangel Krımski, Xalid Səid Xocayev və başqaları kimi görkəmli elm xadimləri iştirak etmiş, məruzə və çıxışları ilə bu ali türkoloji forumun yüksək səviyyədə keçirilməsinə xidmət göstərmişlər. Nə özündən əvvəl və hətta nə də sonra dünyanın heç bir ölkəsində türkologiya üzrə bu qədər görkəmli alimi özündə birləşdirən və türk dünyasının problemlərini müzakirəyə çıxaran ikinci bir beynəlxalq forum göstərmək çətindir.

Birinci Türkoloji Qurultayın işinə rəhbərlik etmiş, yeni türk əlifbasının qəbul edilməsi uğrunda axıradək mübarizə aparmış bolşevik-ziyalı Səmədağa Ağamalıoğlunu da ehtiramla yad etməyi özümüzə borc bilirik. Dövrün siyasi məhdudiyyətlərinə baxmayaraq, Səmədağa Ağamalıoğlu Birinci Türkoloji Qurultayın iclaslarına axıradək sədrlik etmiş və bütün imkanları ilə ortaq latın əlifbasının qəbul olunması üçün səy göstərmişdir.

XX əsrin əvvəllərində Azərbaycanın paytaxtı Bakı şəhəri türk dünyasının və türkologiyanın ən mühüm mərkəzlərindən biri kimi qəbul olunurdu. Türk dünyasında ilk teatr, ilk opera, ilk qəzet, ilk dünyəvi məktəb məhz Azərbaycanda – Bakıda yaranıb inkişaf etmişdi. Azərbaycan Demokratik Respublikası türk-müsəlman aləmində yaranmış Respublika tipli ilk müstəqil dövlət kimi tarixə daxil olmuşdur. Neft paytaxtı olan Bakı həm də inkişaf etmiş hər cür infrastruktura malik olan şəhər kimi də nəinki türk dünyasında, hətta Avropada da tanınır və qəbul edilirdi.

Qafqazda və türk dünyasında ilk universitetə sahib olan Bakı inkişaf etmiş ziyalı mərkəzi kimi də tanınırdı. XX əsrin əvvəllərində Azərbaycan alimləri mühüm elmi əsərləri və nəzəriyyələri ilə diqqəti cəlb edirdilər. Azərbaycan bütün dövrlərdə türkologiyanın inkişafında lokomotiv rolunu oynayırdı.

Bundan başqa, 1920-ci ildə Şərqşünasların Birinci Türkoloji Qurultayı da, 1923-cü ildə Diyarşünasların I Qurultayı da Bakıda böyük uğurla keçirilmişdi.

Beləliklə, Azərbaycan elmi-intellektual müzakirələr üçün də, qonaqlama baxımından da mühüm mərkəzlərdən biri olaraq qəbul edilirdi:

Hər halda, belə desək, bizi mübaliğə etməklə günahlandırmazlar ki, Birinci Türkoloji Qurultayın keçirildiyi Azərbaycan Milli Elmlər Akademiyasının Böyük Akt zalı kimi ikinci bir memarlıq əsərinə Şərqdə də, Qərbdə də rast gəlmək çətin idi.

Birinci Türkoloji Qurultay dil, ədəbiyyat, tarix, fəlsəfə, folklor, etnoqrafiya, sənətşünaslıq, terminologiya kimi sahələri əhatə etmiş, türkologiya elminin mükəmməl bir sistemini və modelini yaratmışdır.

Birinci Türkoloji Qurultay türk xalqları arasında elmi-mədəni inteqrasiyanın əsaslarını formalaşdırmışdır.

Birinci Türkoloji Qurultayın ən böyük Zəfəri isə ortaq türk əlifbasının - vahid latın əlifbasının qəbul edilməsi olmuşdur.

Dərin təəssüf hissi ilə bildiririk ki, Birinci Türkoloji Qurultayın iştirakçılarının mütləq əksəriyyəti sovet rejimi tərəfindən məhv edilmişdir.

Birinci Türkoloji Qurultaydan dərhal sonra XX əsrin əvvəllərində ilk olaraq ortaq türk latın əlifbasını Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk qəbul etmişdir.

Azərbaycanda hələ 1924-cü ildən etibarən Yeni Əlifba Komitəsi fəaliyyət göstərmiş və ölkəmizdə latın əlifbasına keçidin əsasları yaradılmışdır. Bununla belə, Azərbaycanda rəsmi olaraq 1929-cu ildə ortaq latın əlifbasına keçilmiş, lakin təəssüf ki, bu proses uzun çəkməmişdir. İosif Stalin türk xalqlarının inteqrasiyasından ehtiyatlandığı üçün Birinci Qurultayın iştirakçılarına qarşı ağır və əzablı repressiyaları həyata keçirmişdir. Cəmi on ildən sonra Azərbaycanda və digər türk respublikalarında ortaq türk latın əlifbasından kiril əlifbasına keçilmişdir. Sovet hakimiyyəti illərində Sovetlər İttifaqının hər yerində müəyyən fərqli hərflərin olması ilə fərqlənən kiril əlifbasından istifadə olunmuşdur.

XXI əsrin başlanğıcında isə yeni yaradılmış müstəqil dövlətlər sırasında ortaq latın əlifbasına keçid haqqında birinci Fərmanı ilk olaraq Azərbaycan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyev imzalamışdır.

Ölkəmizdə Birinci Türkoloji Qurultayın yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 9 noyabr 2005-ci ildə Birinci Türkoloji Qurultayın 80, 18 fevral 2016-cı ildə 90 və 22 oktyabr 2025-ci ildə isə 100 illik yubileylərinin keçirilməsi haqqında Sərəncamlar imzalamışdır. Qalib ölkənin Qalib lideri İlham Əliyevin Birinci Türkoloji Qurultayın yubileylərinin keçirilməsi haqqındakı Sərəncamları türk dünyası idealını meydana qoymuş görkəmli şəxsiyyətlərə dövlət səviyyəsində verilmiş siyasi bəraətin və yüksək qiymətin əməli ifadəsi kimi mühüm tarixi əhəmiyyətə malikdir.

Türk Dövlətləri Təşkilatının yaranıb inkişaf etdirilməsi, nüfuzlu beynəlxalq təşkilata çevrilməsi Birinci Türkoloji Qurultayın möhtəşəm yekunudur.

Türk Dövlətləri Parlament Assambleyasının, Beynəlxalq Türk Akademiyasının, Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması və uğurla fəaliyyətini davam etdirməsi Birinci Türkoloji Qurultayın ideallarının davam etdirilməsi və gerçəkləşdirilməsi baxımından mühüm hadisələrdir.

Nəhayət, 11 sentyabr 2024-cü ildə 34 hərfdən ibarət ortaq latın əlifbasının qəbul edilməsi Birinci Türkoloji Qurultayın dərslərinin yeni tarixi epoxada həyata keçirilməsi deməkdir.

Yüz il sonra Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasında keçirilmiş «I Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik» mövzusunda beynəlxalq elmi konfransda türk dünyasının elm, ədəbiyyat və incəsənət xadimlərinin yenidən Bakıya toplaşaraq o vaxtkı tarixi salonda birlik və bərabərlik nümayiş etdirmələri Birinci Türkoloji Qurultayın dərslərinin həyata keçirildiyini, böyük ideallarının uğurla davam etdirildiyini əyani surətdə nümayiş etdirir.

Azərbaycan Milli Elmlər Akademiyasının ayrı-ayrı elmi-tədqiqat institutlarında yaradılmış Türk xalqları folkloru, Türk əlyazmalarının tədqiqi, Türk Sənət tarixi və mədəni irsi, Türk xalqlarının tarixi və etnologiyası, Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbələri Birinci Türkoloji Qurultayın təqdim etdiyi geniş miqyaslı, çoxvektorlu türkologiyaya qayıdışın uğurlu təzahürləridir.

Birinci Türkoloji Qurultayın Bakı şəhərində Türk Dövlətlərinin Rəhbərləri səviyyəsində keçirilməsi Azərbaycanın və türk dünyasının möhtəşəm Zəfəridir.

*Иса Габиббейли* (Азербайджан)

**Основатели, уроки и современность первого тюркологического съезда**

**Резюме**

В связи с Распоряжением Президента Азербайджанской Республики Ильхама Алиева «О проведении 100-летнего юбилея Первого Тюркологического съезда», подписанным 22 октября 2025 года, мы вместе с представителями нового поколения интеллигенции осуществляем историческую миссию вместе с выдающимися учёными, известными писателями и поэтами, прибывшими из различных регионов тюркского мира.

Первый Тюркологический съезд охватил такие области, как язык, литература, история, философия, фольклор, этнография, искусствоведение и терминология, создал совершенную систему и модель тюркологии, а также сформировал основы научно-культурной интеграции между тюркскими народами.

Создание и успешная деятельность Парламентской Ассамблеи Организации тюркских государств, Международной Тюркской академии, Фонда тюркской культуры и наследия являются важными событиями с точки зрения продолжения и реализации идеалов Первого Тюркологического съезда.

**Ключевые слова:** *тюркский мир, Тюркологический съезд, тюркские народы, общий тюркский алфавит*

*Isa Habibbayli (Azerbaijan)*

## The Founders, Lessons of the First Turkological Congress and Modernity

### Abstract

We are implementing a historical mission together with prominent scientists, famous writers, poets coming from different parts of the Turkic world, and the representatives of the new generation of intellectuals, related with the Order of the President of the Republic of Azerbaijan Ilham Aliyev “On the 100th Anniversary of the First Turkological Congress” that signed on October 22, 2025.

The First Turkological Congress had covered the areas such as language, literature, history, philosophy, folklore, ethnography, art history, terminology, created a perfect system and model of Turkological science, and formed the foundations of scientific-cultural integration among the Turkic peoples.

The establishment and successful continuation of the activities of the Parliamentary Assembly of the Turkic States, the International Turkic Academy, and the Turkic Culture and Heritage Foundation are important events in terms of continuing and realizing the ideas of the First Turkological Congress.

**Keywords:** *the Turkic world, Turkological Congress, Turkic peoples, common Turkic alphabet.*